# Regionlarla tanışlıq şagirdlərdə vətənpərvərlik hissinin formalaşmasında əvəzsiz rol oynayır

## "Ölkəmizi tanıyaq" tur-aksiya iştirakçıları muzeydə

***Böyük tarixi keçmişi olan Azərbaycan qədim abidələri, zəngin maddi-mədəniyyət nümunələri, füsunkar təbiəti ilə hər kəsin diqqətini cəlb edir. Bu diyarı gəzmək, görmək, öyrənmək təkcə turistlərin deyil, hər bir azərbaycanlının böyük arzusudur. Ölkənin gələcəyi olan yeniyetmələr üçün bu arzu daha vacibdir. Ona görə Prezident İlham Əliyevin tapşırığına əsasən respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar böyük əhəmiyyət daşıyır.***

Məktəblilər 13-20 noyabr tarixlərində Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində oldular. Biləsuvar, Kürdəmir, Hacıqabul, Ucar, Cəbrayıl, Saatlı, Sabirabad, Zərdab, İmişli, Füzuli, Şabran, Göygöl, Tovuz, Xaçmaz, Quba, Qusar, Şirvan, Siyəzən, Xızı rayonlarının məktəblilərinə 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin tarixi, inkişafı, mədəniyyəti, etnoqrafiyası haqqında məlumat verildi. Bildirildi ki, muzeydə Qəbələnin 2500 illik tarixini əks etdirən 14 mindən cox tarixi və elmi əhəmiyyətə malik eksponat mühafizə olunur.

Məktəblilər öz ürək sözlərini muzeyin rəy kitabına qeyd etdilər. Onlar xoş təəssüratlarla muzeydən ayrıldılar.

**✍ Brilyant MƏLİKOVA,**
**muzeyin bələdçisi.**

## Tur-aksiya Qəbələdə uğurla başa çatmışdır

***Noyabrın 12-dən 15-dək respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün Qəbələdə təşkil olunmuş "Ölkəmizi tanıyaq" layihəsinin növbəti tur-aksiyası uğurla başa çatmışdır.***

Tur-aksiyada iştirak edən Sabirabad, Saatlı, Zərdab, Biləsuvar, Cəbrayıl, Hacıqabul, Kürdəmir və Ucar məktəbliləri 3 günlük tur-aksiya zamanı təşkil olunan ekskursiyalar ilə bağlı təəssüratlarını bölüşərkən, rayondakı təbiət mənzərələrinin, qədim və müasir arxitekturaya əsaslanan abidələrin, sənaye müəssisələrinin, turizm sektoru və əyləncə mərkəzlərinin onların yaddaşlarında silinməz izlər buraxdığını və xoş təəssürat yaratdığını qeyd edərək bu bölgəyə gələcəkdə bir daha gəlmək arzusunda olduqlarını bildirmişlər.



Tur-aksiyada Azərbaycan İntellektual Klublar Assosasiyasının təşkilatçılığı ilə məktəblilər üçün "Nə? Harada? Nə zaman?" mövzusunda intellektual oyun təşkil olunmuşdur. Oyunda 40-dan çox komanda iştirak etmişdir. İntellektual oyunun nəticələrinə görə Saatlı rayonunun məktəblilərindən ibarət komanda 1-ci yerə, Zərdab rayonunun məktəblilərindən ibarət komanda 2-ci yerə, Hacıqabul rayonunun məktəblilərindən ibarət komanda isə 3-cü yerə layiq görülmüşlər. Qaliblərə kubok, medal və sertifikatlar təqdim olunmuşdur.

Səfərin son günü rayon icra hakimiyyətinin və təhsil şöbəsinin məsul işçiləri tərəfindən yola salınan tur-aksiya iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və rayon rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

***"Qəbələ".***
**İlkin Vəlizadə.**

## Qəbələ məktəbliləri tur-səfərinə yola salınıblar

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün təşkil olunmuş "Ölkəmizi tanıyaq" layihəsinə əsasən Qəbələ məktəbliləri Quba, Qusar, Xaçmaz rayonlarına tur-səfərlərinə yola salınıblar.***




Əvvəlcə tur-aksiya iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzmüşlər.

Yolasalma mərasimində çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova tur-aksiyanın əhəmiyyətindən söz açmış, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasəti istiqamətində görülən işlərdən danışmışdır. O, "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyaların da məhz bu amala xidmət etdiyini, şagirdlərdə vətənə məhəbbət hisslərinin aşıladığını bildirmişdir.

Mərasimdə rayon təhsil şöbəsinin müdiri Oqtay Hacıyev, gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov və Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi Səidə Yaşarlı çıxış edərək layihənin ölkə gənclərinin vətənpərvərlik, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunması, məktəblilərin dünyagörüşünün daha da zənginləşməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmişlər.

Maarifləndirici tur-aksiyanın təşkil olunması üçün rayon icra hakimiyyətinin yaratdığı qərargah tərəfindən şagirdlərə xüsusi geyimlər paylanılmışdır.

Yolasalma mərasimində iştirak edən valideynlər və məktəblilər ölkə başçısı cənab İlham Əliyevə minnətarlıqlarını ifadə etmişlər.

Sonda tur-aksiya iştirakçıları onlar üçün ayrılmış xüsusi avtobusla Quba-Qusar-Xaçmaz istiqamətində yola düşmüşlər.

***«Qəbələ».***
**İlkin Vəlizadə.**

## Qəbələ məktəblisi: "Şahdağ" turizm kompleksi ölkəmizdə turizmin inkişafının göstəricisidir

***"Şahdağ" qış-yay turizm kompleksi möhtəşəm istirahət məkanıdır. Qəbələ ilə Qusarın təbiəti çox oxşardır. Bizim rayonda da belə istirahət mərkəzləri var. Bu, ölkəmizin turizm sahəsində inkişafının göstəricisidir. Ümumiyyətlə, olduğumuz hər bir rayonda sürətli inkişafın şahidi oluruq. Yeni tikililər, parklar, abadlıq göz oxşayır.***

Bu sözləri AZƏRTAC-a müsahibəsində "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyanın iştirakçısı, Qəbələ məktəblisi Elsun Rzayev söyləyib.

Məktəbli Qusara ilk dəfə gəldiyini bildirib. "Ekskursiyamız düşündüyümdən də maraqlı keçir. Biz bu tur-aksiya zamanı Vətənimizin nə qədər qədim tarixə malik olduğunu gözlərimizlə görürük. Bizə vətənimizi daha yaxşı tanımaq imkanı yaratdığı üçün dövlətimizin başçısı İlham Əliyevə minnətdarıq" - deyə E. Rzayev bildirib.

***AZƏRTAC.***

## Tarixi yaşadan sənətkarlıq nümunələri

Keçmişimizi bilmədən gələcəyimizi doğru, düzgün qura bilmərik. Qədim, ulu keçmişimizi dərindən bilmək üçün muzeylərin böyük rolu vardır.

Mənəvi sərvətlərimizi mühafizə və təbliğ edən Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi də bütün bu işlərin öhdəsindən laiqincə gəlir.

Bu günlərdə muzeyin ekspozisiyasında yeni, geniş sərgi təşkil olunmuşdur. Şirli qablardan ibarət sərgidə müxtəlif formalı boşqablar, çıraqlar, kasalar, kiçik həcmli qablar nümayiş olunur.

Onu da qeyd etmək lazımdır ki, ekspozisiyadakı nümunələr restavrasiya olunmamışdır. Bütün rənglər VIII əsrdən indiyədək təbii olaraq hələ də qalmaqdadır. Müxtəlif bitkilərdən alınan bu rənglər hələdə təbiiliyini itirməmişdir. Bu nümunələr içərsində 2008-ci ildə qala ərazisindən tapılmış kiçik həcmli boşqablar daha çox diqqəti çəkir. Bu qab İslam dininin Qafqaz Albaniyasının ərazisində bərqərar olduğu dövrü əhatə edir. Qabın içərisində təbii boyalar vastəsi ilə qədim ərəb əlifbası ilə "Allahın adı ilə" kəlməsi yazılmışdır. Bu nümunələri digərlərindən fərqləndirən əsas cəhətlərdən biri də odur ki, qabların arxa hissəsində damğalar, möhürlər vardır. Dulusçular əl işini fərqləndirmək üçün bu cür vasitədən istifadə etmişlər.

Hər kəsi heyran edən, maraqlandıran nümunələri görmək istəyənləri Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinə dəvət edirik.

**✍ İlhamə SEYİDOVA,**
**muzeyin kiçik elmi işçisi.**